

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 179 (21.080)

19 sentyabr 2014-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Monteneqronun Baş naziri Milo Cukanoviçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Əvvəlcə Prezident İlham Əliyevin Baş nazir Milo Cukanoviçlə təkbətək görüşü oldu.

Sonra görüş geniş tərkibdə davam etdirildi.

Dövlətimizin başçısı Azərbaycan ilə Monteneqro arasında ikitərəfli dostluq münasibətlərinin müxtəlif sahələri əhatə etməsindən və dinamik inkişafından məmnunluğunu ifadə etdi. Əməkdaşlığımızın genişləndirilməsi məsələsinə toxunan Prezident İlham Əliyev ölkələrimiz arasında qarşılıqlı ticarət əlaqələrinin inkişaf etdirilməsi üçün də yaxşı imkanların olduğunu vurğuladı. İkitərəfli münasibətlərin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd edən dövlətimizin başçısı Monteneqronun Baş naziri Milo Cukanoviçin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin əlaqələrimizin inkişafı ilə bağlı məsələlərin müzakirəsi baxımından əhəmiyyətini diqqətə çatdırdı.

Baş nazir Milo Cukanoviç Azərbaycan Prezidentinin Monteneqroya olan dostluq münasibətinə görə minnətdarlığını bildirdi. Ötən dövr ərzində ölkəmizdə gedən sürətli inkişaf proseslərinin şahidi olduğunu vurğulayan Baş nazir bu inkişafın onda dərin təəssürat yaratdığını dedi və əldə olunan nailiyyətlər münasibətilə dövlətimizin başçısını təbrik etdi. Milo Cukanoviç öz növbəsində Azərbaycan ilə Monteneqro arasında ikitərəfli münasibətlərin inkişafının razılıq doğurduğunu vurğuladı.



## Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının hesabat konserti olmuşdur





*Sentyabrın 18-də, Milli Musiqi Günündə C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının beşinci hesabat konserti olmuşdur.*

Konsert proqramından əvvəl Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimi Şəmsəddin Qasımov çıxış edərək bildirmişdir ki, Naxçıvan Muxtar Respublikasında musiqi sənətinin inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun böyük qayğısı sayəsində 1978-ci ilin sentyabr ayında Naxçıvanda Azərbaycan Bəstəkarlar İttifaqının səyyar plenumu keçirilmiş və ilk dəfə olaraq burada Azərbaycan Bəstəkarlar İttifaqının Naxçıvan Təşkilatı yaradılmışdır.

Bu gün Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatına böyük qayğı göstərilir, bəstəkar və musiqişünasların yaradıcılığının inkişafı üçün hər cür şərait yaradılır. 1998-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yaradıcı ziyalılarla görüşündən sonra Azərbaycan Bəstəkarlar İttifaqı Naxçıvan Təşkilatının fəaliyyətində də ciddi dönüş olmuşdur. Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatı muxtar respublikanın ictimai-mədəni həyatında yaxından iştirak edir, musiqi mədəniyyətimizin zənginləşməsi yolunda səyini əsirgəmir.

Təşkilat sədri qeyd etmişdir ki, muxtar respublikada musiqi mədəniyyətinin inkişafı üçün zəruri baza mövcuddur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində Naxçıvan Dövlət Universitetində İncəsənət fakültəsi yaradılmış və konservatoriya fəaliyyətə başlamışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə Naxçıvan Dövlət Uşaq Filarmoniyası və Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestri yaradılmışdır.

Muxtar respublikada 27 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi və Naxçıvan Musiqi Kolleci fəaliyyət göstərir. Bu təhsil müəssisələri musiqi mədəniyyətinin və incəsənətin inkişafına, müvafiq sahə üzrə kadr potensialının formalaşmasına öz töhfələrini verməkdədir. Naxçıvan Dövlət Universitetində Bəstəkarlıq kafedrasının yaradılması ulu diyarımızda bəstəkarların yetişməsində çox böyük əhəmiyyətə malikdir.

“Təşkilat Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsi, Yazıçılar Birliyi, Gənclər və İdman Nazirliyi, Dövlət Musiqili Dram Teatrı, Dövlət Filarmoniyası, Dövlət Kukla və Uşaq teatrları ilə də sıx yaradıcılıq əlaqələri saxlayır”, – deyən Şəmsəddin Qasımov bildirmişdir ki, bir çox yerli şairlərin sözlərinə naxçıvanlı bəstəkarlar tərəfindən mahnılar bəstələnmiş və bu mahnılar vaxtaşırı olaraq Naxçıvan Dövlət Televiziyası və Radiosu ilə səsləndirilir.

Artıq muxtar respublikamızda tələbkar yaradıcılıq mühiti formalaşmışdır. Naxçıvanın müasir bəstəkarları bir sıra maraqlı əsərlərin müəllifləri kimi tanınırlar. Onların müxtəlif janrlarda yazdıqları əsərlər muxtar respublikamızdan kənarda da müəlliflərinə böyük uğur gətirmişdir.

Vurğulanmışdır ki, bəstəkarlarımızın əməyi layiqincə qiymətləndirilmiş, Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatı üzvlərindən 3 nəfəri Prezident mükafatına, 3 nəfəri isə Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülmüşlər. Bu böyük qayğı Naxçıvan bəstəkarlarını doğma Azərbaycanımızın gündən-günə gözəlləşən həyatına həsr edilmiş yeni əsərlər yazmağa ruhlandırır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı və köməkliyi ilə Bəstəkarlar Təşkilatının 2001, 2005, 2007 və 2012-ci illərdə hesabat konserti, 2008-ci ildə isə 30 illik yubiley konserti keçirilmişdir. Bu gün bu möhtəşəm sənət ocağında Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatı sayca beşinci hesabat konsertini keçirir.

Sonra Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının hesabat konserti olmuşdur. Konsertdə muxtar respublikada yaşayıb-yaradan bəstəkarlardan Kamal Əhmədovun, Yaşar Xəlilovun, Günay Məmmədovanın, Şəmsəddin Qasımovun əsərləri ifa edilmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov iştirak etmişdir.

Qeyd edək ki, Milli Musiqi Günü münasibətilə muxtar respublikanın rayon mərkəzlərində də tədbirlər keçirilmiş, konsert proqramları təşkil olunmuşdur.

✍ **Sara ƏZİMOVA**

---

*Şərur rayonunun Diyadin kəndi bu gün əsl tikinti meydançasını xatırladır. Belə ki, muxtar respublikanın son illərdə nail olduğu sosial-iqtisadi inkişafın bəhrələrindən bu yaşayış məntəqəsinə də pay düşüb. Hazırda Diyadində kompleks quruculuq tədbirləri həyata keçirilir.*

## Bir kənddə üç quruculuq ünvanı

Bunlardan biri Diyadin məktəblilərinin təhsilinin yüksək səviyyədə qurulması məqsədilə kənddə inşa olunan yeni məktəb binasıdır. 88 şagird yerlik bina 3 mərtəbədən ibarətdir. Binanın birinci mərtəbəsində kimya, fizika laboratoriyaları, hərbi kabinə, idman zalı yerləşəcək. İkinci mərtəbədə kitabxana, psixoloq otağı, 5 sinif otağı olacaq. Üçüncü mərtəbədə 7 sinif otağı, elektron lövhəli sinif, müəllimlər, kompüter və şahmat otaqları müəllim və şagirdlərin istifadəsinə veriləcək. Artıq binada son tamamlama işləri görülür, məktəbə yeni avadanlıqlar gətirilir.

Şərurda mahiyyət və məzmunca yeni olan kənd mərkəzlərinin də sayı getdikcə artmaqdadır. “Muxtariyyət ili”ndə Diyadində də kənd mərkəzi üçün yeni binanın inşasına başlanması bu quruculuq tədbirlərinin davamlı olmasının göstəricisidir. İki mərtəbədən ibarət binada inzibati ərazi dairəsi üzrə nümayəndəlik, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, klub, kitabxana, iclas zalı, feldşer-mama məntəqəsi, rabitə evi, ATS, polis məntəqəsi üçün otaqlar nəzərdə tutulub.

Digər bir binadan isə diyadinlilər xidmət mərkəzi kimi istifadə edəcəklər. Burada sənaye və ərzaq malları mağazaları, ət satışı dükanı, bərbərxana və qadın gözəllik salonu fəaliyyət göstərəcək.

Diyadinlilərə böyük dövlət qayğısının təzahürü olan bu obyektlərdə inşaat işləri sürətlə davam etdirilir. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Şərur Rayon İdarəsinin inşaatçıları yerli inşaat materiallarından istifadəyə üstünlük verirlər. Qeyd edək ki, yeni obyektlərdə son tamamlama işləri görülür, onların yerləşdikləri ərazilərdə abadlıq işləri aparılır, gülkarlıqlar və yaşıllıq zolaqları salınır.

✍ **Cəfər ƏLİYEV**

---

## Azərbaycan-Fransa arxeoloji ekspedisiyası bu il Naxçıvan ərazisində aparılan tədqiqatların hesabatını verdi

“ABŞ və Fransa alimlərinin naxçıvanlı elm adamları ilə birlikdə Naxçıvanda arxeoloji tədqiqatlar aparması təkcə tariximizin öyrənilməsi baxımından deyil, həm də qədim tariximizin dünyada təbliği baxımından əhəmiyyətlidir. Həm Ordubad ərazisində arxeoloji araşdırmalar aparan AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun “Xaraba Gilan” arxeoloji ekspedisiyası, həm Azərbaycan-ABŞ, həm Azərbaycan-Fransa, həm də AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyalarının əldə etdiyi nəticələr Naxçıvan ərazisinin arxeoloji cəhətdən nə qədər zəngin olduğunu göstərir”.



Bu fikirləri Azərbaycan-Fransa arxeoloji ekspedisiyası tərəfindən Naxçıvan ərazisində bu il aparılan tədqiqatların nəticələrinə həsr olunmuş yığıncaqda AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev səsləndirib. Akademik qeyd edib ki, təqribən, 150 ilə yaxındır, Naxçıvan ərazisində arxeoloji tədqiqatlar aparılır. Ancaq Naxçıvanda çoxlu abidələr var ki, hələ də öz tədqiqini gözləyir. 2006-cı ildən Naxçıvanda həm də beynəlxalq ekspedisiyalar fəaliyyət göstərir. Azərbaycan-Fransa arxeoloji ekspedisiyası isə, əsasən, I Kültəpə və Duzdağ ətrafında araşdırmalar aparır.

Fransız arxeoloq Katerine Marro yığıncaqda çıxış edərək bu il aparılan arxeoloji tədqiqatların nəticələrinin xüsusilə maraq doğurduğunu deyib. O, diqqətə çatdırıb ki, bu il ekspedisiya üzvləri, əsasən, Naxçıvanda heyvandarlıq və mədənçiliyin tarixinin öyrənilməsinə daha çox diqqət yetiriblər. Həm Kültəpə, həm Duzdağ ətrafında aparılan qazıntılar, həm də Sirabçay hövzəsində aparılan tədqiqatlar bu ərazilərdə böyük bir mədəniyyətin mövcudluğundan, heyvandarlığın və mədənçiliyin qədim tarixindən xəbər verir.

Hesabat yığıncağında Azərbaycan-Fransa arxeoloji ekspedisiyasının Azərbaycan tərəfdən rəhbəri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev bu il qazıntıların getdiyi ərazilər, aşkarlanmış maddi-mədəniyyət nümunələri və nəticələr haqqında slaydlar vasitəsilə elmi ictimaiyyətin nümayəndələrinə məlumat verib. Bu il Duzdağ ətrafında aparılan tədqiqatların xüsusilə əhəmiyyətli olduğunu diqqətə çatdıran arxeoloq qazıntılar nəticəsində bu ərazilərdən keramika nümunələrinin, ağac dirək qalıqlarının, Dəmir dövrünə aid olduğu ehtimal edilən həsir səndəllərin, taxıl qalıqlarının aşkara çıxarıldığını deyib. O qeyd edib ki, ümumilikdə, bu ərazidə aşkarlanan maddi-mədəniyyət nümunələri Naxçıvan ərazisində mədənçiliyin tarixinin eramızdan əvvəlki minilliklərdən başladığının bariz sübutudur. V.Baxşəliyev bu il Kültəpədə aparılan arxeoloji tədqiqatlar zamanı görülən işlər və Sirabçay hövzəsindəki arxeoloji tədqiqatlar haqqında da məlumat verib.

Sonra iştirakçıları maraqlandıran suallar cavablandırılıb, arxeoloji ekspedisiyanın bu il əldə etdiyi nəticələr müzakirə edilib.

✍ **Elnur KƏLBİZADƏ**



# İqtisadiyyat

*Nağdsız ödəniş pul və pul vəsaitlərinin nağd olmadan banklar və səlahiyyəti olan digər maliyyə mənbələri vasitəsilə həyata keçirilən pul dövriyyəsinin forması olub, ən etibarlı hesablaşma şəklidir. Təbii ki, bunun üçün etibarlı əməliyyat sistemi, geniş texniki imkanlar və subyektlər arasında inam olmalıdır. İlk iki məsələni yalnız maddi imkanlar hesabına, özü də qısa müddətdə reallaşdırmaq mümkündürsə, üçüncü məsələ maarifləndirmə və təbliğat tələb edir.*

## Nağdsız hesablaşmaların həcmi artır

*Təkcə bu ilin avqust ayında nağdsız əməliyyatların həcmi bir milyon manatdan çox olub*



Nağdsız ödəniş sistemlərinin dünyanın inkişaf etmiş ölkələrinin iqtisadiyyatlarındakı çəkisinə diqqət edərkən bu sistemin iqtisadi inkişaf üçün nə dərəcədə əhəmiyyət kəsb etdiyini görmüş oluruq. Bunu statistik rəqəmlər də göstərir.

Nağdsız ödənişlərin əhatə dairəsinin genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər Naxçıvan Muxtar Respublikasında maliyyə-iqtisadi siyasətin reallaşdırılması məqsədini daşıyır. Bu sahədə beynəlxalq təcrübədən, inkişaf etmiş ölkələrdə tətbiq olunan stimullaşdırıcı tədbirlərdən yararlanmaqla, habelə əhalinin maarifləndirilməsi və məlumatlandırılması yolu ilə nağdsız ödəniş sisteminin genişləndirilməsinə nail olmaq mümkündür. Dünya təcrübəsində təyin olunmuş limitdən artıq nağd hesablaşmalar həyata keçirən hüquqi şəxslərə cərimələr tətbiq olunur. Fransada bir əqd üzrə nağd aparılmış əməliyyat həcmi 1300 ABŞ dolları həcmini aşdıqda, artıq məbləğin 5 faizi həcmində cərimə tətbiq edilir. Müvafiq olaraq, bu göstəricilər Rusiyada 3400 ABŞ dollarını aşdıqda 50 faiz, Bolqarıstanda 3300 ABŞ dollarını aşdıqda fiziki şəxslərə 25 faiz, hüquqi şəxslərə 50 faiz həcmində müəyyən olunur.

Muxtar respublikada nağdsız aparılan əməliyyatlara görə müxtəlif güzəştlər tətbiq edilir, bonuslar və mükafatlar verilir. "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti tərəfindən Naxçıvan şəhərində fəaliyyət göstərən bir sıra böyük xidmət və ticarət müəssisələrində aparılan nağdsız əməliyyatlara görə 5 faiz həcmində güzəşt edilir. Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi tərəfindən də həvəsləndirici tədbirlər həyata keçirilir. Cari ilin iyul ayında daha çox nağdsız əməliyyat aparmaqda fərqlənmiş 76 nəfər qiymətli hədiyyələrlə mükafatlandırılmışdır. Belə tədbirlər davam etdiriləcəkdir.

Nağdsız ödəniş sistemi maliyyə vəsaitlərinin dövriyyəsinin sürətlənməsi, nağd pul kütləsinin ixtisarı, ödəniş məbləğinin dəqiq aparılması kimi iqtisadi, vaxt itkisinin aradan qaldırılması kimi sosial əhəmiyyətli üstünlüklərə malikdir. Çünki, əsasən, bankların və digər maliyyə təşkilatlarının yaratdığı sistem vasitəsilə həyata keçirilən nağdsız ödəniş əməliyyatlarında bütün hüquqi və fiziki şəxslər sərbəst şəkildə iştirak etmək imkanlarına malik olurlar. Eyni zamanda bu sistem maliyyə intizamına nəzarət etməyə, maliyyə əməliyyatlarında şəffaflığın qorunmasına, vətəndaşların rahatlığının təmin olunmasına, müştərilərin və bank əməliyyatlarının təhlükəsizliyinə şərait yaradır.

Nağdsız hesablaşmalar nağd ödənişlə müqayisədə bir çox üstünlüklərə malikdir. Belə ki, bu sistem nağd ödənişlərdə olduğu kimi, pulların təkrar hesablanmasını tələb etmir, vergidənyayınma hallarının qarşısını alır, əhaliyə dövlət təşkilatları tərəfindən göstərilən kommunal və sair xidmət haqlarının rahat şəkildə, yəni heç kimə müraciət etmədən ödənilməsini, canlı ünsiyyətin azalması nəticəsində qanundankənar halların aradan qaldırılmasını təmin edir. Həmçinin nağdsız ödəniş sistemindən istifadə etməklə əlavə pulun çap olunmasına, nağd pulun daşınmasına, saxlanılmasına, yoxlanılmasına sərf edilən əlavə xərclərə qənaət edilir.

Hazırda nağdsız ödənişlərin muxtar respublikamızın maliyyə sektorundakı payı artan templə davam etməkdədir. Bu mənada nağdsız ödənişlərin iqtisadiyyatdakı çəkisini artırmaq üçün 2013-2015-ci illəri əhatə edən "Naxçıvan Muxtar Respublikasında elektron ödəniş mexanizminin formalaşdırılması və nağdsız hesablaşmaların həcminin artırılması üzrə Tədbirlər Planı" təsdiq edilmişdir. Tədbirlər Planına uyğun olaraq, maliyyə sektorunun aparıcı subyektləri olan banklar və digər maliyyə təsərrüfatları tərəfindən nağdsız ödəniş sisteminin tətbiqinin texniki tərəflərinin həll edilməsi, infrastrukturun inkişafı və təkmilləşdirilməsi, ictimaiyyətin maarifləndirilməsi və maraqlandırılması, geniş təbliğat-təşviqat işlərinin aparılması istiqamətindəki fəaliyyət uğurla həyata keçirilir. Məhz bunun nəticəsidir ki, tədbirlər planının qəbulundan əvvəlki dövrlə müqayisədə böyük irəliləyişlər əldə edilmiş, istər infrastruktur, istərsə də əhalinin maarifləndirilməsində böyük uğurlara nail olunmuşdur. Belə ki, muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən indiyədək təkcə Naxçıvan şəhərində 424, rayonlarda və kənd mərkəzlərində 268 olmaqla, ticarət və xidmət müəssisələrində, restoranlarda, otellərdə və digər iaşə obyektlərində 692 ədəd POS-terminal quraşdırılmışdır. Bu isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 3 dəfədən çox artım deməkdir.

Hazırda muxtar respublikada ödəniş kartlarının sayı 198 min 899 ədədə çatdırılmışdır ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,1 faiz – 21 min 459 ədəd artım deməkdir. Quraşdırılmış bankomatların sayı isə 7 ədəd artırılaraq 92 ədəd təşkil etmişdir. Nağdsız ödənişlərin genişləndirilməsi məqsədilə muxtar respublikada vətəndaşlara ödəniş kartları vasitəsilə vergi və rüsumları, Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu və yerli şöbələrinə sosial sığorta haqlarını nağdsız şəkildə, istər müvafiq idarələrdə quraşdırılmış POS-terminal, istərsə də internet portalları vasitəsilə ödəmə imkanları təqdim edilir. Eyni zamanda mobil və stasionar rabitə üzrə xərclər, qaz, enerji kimi kommunal xərclər internet üzərindən elektron şəkildə ödənilə bilər. Bunlara uyğun olaraq, banklar tərəfindən müştərilərə təqdim edilən çeşidli nağdsız ödəniş vasitələri də bu sistemin genişlənməsi istiqamətində öz rolunu oynayır.

Nağdsız ödəniş alətləri infrastrukturunun genişləndirilməsi, əhalinin bu istiqamətdə maarifləndirilməsi və həyata keçirilən digər tədbirlər nağdsız ödənişlərin həcminin artması ilə nəticələnmişdir. Belə ki, təkcə bu ilin avqust ayı ərzində banklar tərəfindən muxtar respublikada quraşdırılmış POS-terminallar, internet və digər ödəniş sistemləri vasitəsilə aparılan nağdsız əməliyyatların həcmi, ümumilikdə, 1 milyon 325 min 217 manat təşkil etmişdir.

Muxtar respublikada elektron hökumətin inkişaf etdirilməsi, müvafiq infrastrukturun yaradılması nağdsız ödəniş sisteminin inkişafına xidmət edən amillərdir.

**Bütün bu tədbirlərin həyata keçirilməsi nağd pul dövriyyəsinin məhdudlaşdırılmasında, təsərrüfat subyektlərində maliyyə intizamının gücləndirilməsində, yüksək ödəniş mədəniyyətinin formalaşdırılmasında mühüm rol oynayacaqdır.**

**Tural ŞİRƏLİZADƏ**
*Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin mütəxəssisi*

*İstehsal müəssisələri*

## Karbon Qazı Zavodunun istehsal imkanları genişlənir

***Muxtar respublikanın bütün ehtiyatlarından səmərəli istifadə olunmaqla daxili bazarın tənzimlənməsində, tələbatın yerli istehsal hesabına ödənilməsində və idxaldan asılılığın azaldılmasında, xaricə valyuta axınının qarşısının alınmasında, əhali tələbatının daha dolğun ödənilməsində yerli istehsalın əvəzsiz rolunu nəzərə alaraq muxtar respublikada kompleks tədbirlər həyata keçirilmiş, yeni istehsal və xidmət sahələri yaradılmışdır. Belə istehsal sahələrindən biri də 2008-ci ilin dekabr ayından Culfa rayonunda fəaliyyət göstərən "Karbon Qazı Zavodu" Açıq Səhmdar Cəmiyyətidir.***



Özəl bölməyə göstərilən dövlət qayğısından bu müəssisə də bəhrələnmiş, 2007-ci ilin mart ayında Sahibkarlığa Kömək Fondundan 680 min manat dövlət maliyyə dəstəyi göstərilmişdir. İkimərtəbəli inzibati və istehsal binalarından ibarət olan müəssisədə əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Qaz mənbəyindən zavodadək 2650 metr boru xəttində təmir işləri görülmüşdür. Müəssisədə Rusiya və Ukraynadan alınmış müasir texnoloji avadanlıqlar quraşdırılmışdır ki, bu, görülən işin daha keyfiyyətli, sürətli və yüksək səviyyədə aparılmasına imkan yaratmışdır. İstehsal və köməkçi sahələrin tikintisinə, həyətyanı sahənin abadlaşdırılmasına 775 min 500 manat, avadanlıqların alınmasına isə 320 min manat, ümumilikdə, 1 milyon 95 min 500 manat vəsait sərf olunmuşdur.

Məlumat üçün qeyd edək ki, muxtar respublikanın maye karbon qazına olan illik tələbatı 2800 tondur. İllik istehsal gücü 6300 ton maye karbon qazı və 50 ton quru buz olan müəssisədə istehsal edilən məhsul ölkəmizin digər regionlarında da satışa çıxarılır və gələcəkdə xaricə ixrac olunması planlaşdırılır. Bu məqsədlə müəssisənin balansındakı maye karbon qazını daşımaq üçün 2 ədəd 12 tonluq və 1 ədəd 6 tonluq avtosisternlərdən, eləcə də 2009-cu ildə alınmış soyuducu kameralı "Mitsubishi" markalı quru buz daşıyan texnikadan səmərəli istifadə olunur. 2010-cu ilin mart ayında Sahibkarlığa Kömək Fondundan əlavə olaraq 350 min manat güzəştli kredit verilmişdir ki, bu vəsait də yeni texnikaların alınmasına yönəldilmişdir. İsveçin "SKANİA" firmasının istehsalı olan 2 ədəd çəkici avtomaşın və Türkiyənin "ISISAN" firmasının istehsalı olan yüksək texniki göstəricilərə malik 2 ədəd avtosistern alınıb gətirilmişdir. Bu da istehsal olunan məhsulun vaxtlı-vaxtında sifarişçilərin ünvanlarına çatdırılmasına əlverişli şərait yaradır.

"Karbon Qazı Zavodu" ASC-nin direktoru Elman Seyidov bildirdi ki, müəssisədə Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsində qeydiyyatdan keçmiş laboratoriya fəaliyyət göstərir. Bu da istehsal edilən məhsulun keyfiyyətinə nəzarət etməyə imkan verir. Müəssisədə bütün texnoloji proseslərə, istehsal olunan karbon qazının, quru buzun keyfiyyətinə və sanitar-gigiyenik qaydalara ciddi əməl olunur. Maye karbon qazı 6 kiloqramdan 25 kiloqramadək müxtəlif çəkilərdə balonlarda və çənlərdə, quru buz isə xüsusi taralarda sifarişçilərin ünvanlarına göndərilir. Müəssisədə istehsal edilən maye karbon qazı və quru buz mineral sular, sərinləşdirici içkilər istehsal edən müəssisələr, tibb ocaqları, ərzaq məhsullarının istehsalı və daşınması ilə məşğul olan şirkətlər tərəfindən alınır. Müəssisədə istehsal olunan məhsullara tələbat artmış, quru buz cari ildə sifarişə uyğun olaraq Bakı şəhərində fəaliyyət göstərən şirkətlərə də göndərilmişdir. Müqayisə üçün qeyd edək ki, "Karbon Qazı Zavodu" ASC əvvəllər ölkəmizin digər regionlarında fəaliyyət göstərən 7-8 müəssisəyə və ya şirkətə karbon qazı satırdısa, hazırda bu rəqəm 40-ı ötmüşdür.

Bazar iqtisadiyyatının tələblərinə uyğun keyfiyyətli məhsul istehsal etmək əzmi ilə çalışan kollektiv maye karbon qazı və quru buza artan tələbatın ödənilməsi üçün mövcud imkanlardan səmərəli istifadə etməyə səy göstərir. Müəssisədə tələbata uyğun olaraq, istehsal edilən məhsulun 44 faizi muxtar respublikada, 56 faizi isə Bakı şəhərində və ölkənin digər regionlarında fəaliyyət göstərən sifarişçi müəssisələrə göndərilir.

Cəmiyyətin direktoru onu da bildirdi ki, Bakı və Qax şəhərlərində müəssisənin balondoldurma məntəqələri fəaliyyət göstərir. Hazırda müəssisədə 30 nəfər çalışır. Gələcəkdə müəssisənin fəaliyyətinin daha da genişləndirilməsi planlaşdırılır.

✍ **Kərəm HƏSƏNOV**

## Aqrar sahəyə qayğı insanların rifah halını yaxşılaşdırıb

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nın icrası istiqamətində həyata keçirilən tədbirlər cari ilin ötən dövrü ərzində də davam etdirilərək bir sıra uğurlu nəticələr qazanılıb. Əldə edilən nailiyyətlərdə əkin sahələrinin suvarılmasını təmin etmək üçün meliorasiya tədbirlərinin diqqətdə saxlanılması, məhsul istehsalçılarının kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizatı başlıca rol oynayıb.***

Muxtar respublikanın dağlıq bölgəsi olan Şahbuz rayonunda da aqrar sahənin inkişafı bu gün ən yüksək önəm verilən sahələrdən biridir. Çünki hər bir şahbuzlu öz həyat səviyyəsinin yaxşılaşmasını bu sahənin inkişafında görür, dövlətimizin yaratdığı şəraitdən istifadə edərək məhsul bolluğu yaradılmasına çalışır. Şahbuz Rayon Statistika İdarəsindən aldığımız məlumata görə, 2014-cü ilin məhsulu üçün 461 hektar sahədə kartof, 284 hektarda tərəvəz, 6 hektarda bostan, 3 hektarda qarğıdalı, 4 hektarda günəbaxan bitkiləri əkilib.

Bölgədə daha çox inkişaf etdirilən əkinçilik sahələrindən biri taxılçılıqdır. Ötən ilin payızında və cari ilin yazında 2014-cü ilin məhsulu üçün torpaq mülkiyyətçiləri 1331 hektar sahədə taxıl əkiblər. Bunun 1010,3 hektarı buğda, 320,7 hektarı arpa olub. Bu sahə ilə məşğul olanların müxtəlif dövlət yardımları, kreditlər, məhsuldar toxum sortları, texnika, suvarma suyu ilə təchizatı diqqət mərkəzində saxlanılıb, sahələrə aqrotexniki qaydalar əsasında qulluq edilməsinə şərait yaradılıb. Çəkilən zəhmət isə Şahbuz taxılçılarının xeyli gəlir əldə etməsinə imkan verib. Sahələrdən 3707 ton məhsul götürülüb ki, bunun da 2998 tonu buğda, 709 tonu arpadır. Hektarın orta məhsuldarlığı 27,9 sentner təşkil edib. 2014-cü ilin nəticələri şahbuzluları növbəti ilin bol məhsulunun əsasını qoymağa daha da ruhlandırıb. Onlar payızlıq taxıl əkinini optimal müddətdə başa çatdırmaq üçün sahələrdə şum qaldırılmasını sürətlə davam etdirirlər.

Bölgədə ciddi önəm verilən sahələrdən biri də kartofçuluqdur. İlin ilk 8 ayı ərzində ümumi kartof əkini sahəsinin 370 hektarından 5735 ton kartof tədarük edilib. Rayon əhalisinin meyvə-tərəvəz məhsullarına olan tələbatını daxili imkanlar hesabına ödəmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" bu sahədə zəruri tədbirlərin həyata keçirilməsini təmin edib. Bölgənin torpaq mülkiyyətçiləri həm öz tələbatlarını ödəmək, həm də daxili bazara töhfələrini vermək üçün səylərini artıraraq uğurlu nəticələr qazanıblar. Barverən meyvə bağlarından 1267 ton meyvə, ümumi tərəvəz əkini sahəsinin 265 hektarından 4404 ton məhsul tədarük edilib.

Heyvandarlıq məhsulları istehsalında da şahbuzlular ötən illə müqayisədə nəzərəçarpan göstəricilərə nail olublar. Cari ilin yanvar-iyun aylarında rayonda diri çəkidə 1454 ton ət, 10289 ton süd, 138,4 ton yun istehsal edilib.

Aqrar sahədə ötən dövrdə qazanılan bütün bu uğurlar belə deməyə əsas verir ki, 2014-cü il rayonun torpaq mülkiyyətçiləri üçün uğurlu illərdən biri olacaq.

✍ **Muxtar MƏMMƏDOV**

# Naxçıvanın gözəlliyini, abadlığını, müasirliyini görən, insanları ilə ünsiyyət quran hər kəs yenidən bu diyara gəlmək istəyər

## *Bu fikirləri Müstəqil Dövlətlər Birliyinin Dövlətlərarası Şurasının sənayedə təhlükəsizlik üzrə XII iclasının iştirakçıları səsləndirdilər*

***Xəbər verdiyimiz kimi, sentyabrın 16-17-də muxtar respublikamızda növbəti mühüm beynəlxalq tədbir – Müstəqil Dövlətlər Birliyinin Dövlətlərarası Şurasının sənayedə təhlükəsizlik üzrə XII iclası keçirildi. İclasda mühüm məsələlər müzakirə olundu, əhəmiyyətli qərarlar qəbul edildi. Müxtəlif ölkələrdən gələn qonaqlar Naxçıvan şəhərinin gəzməli-görməli yerlərində də oldular. Şəhərin gözəlliyi, abadlığı, təmizliyi, tarixi abidələr qonaqlarda çox böyük təəssürat yaratdı. Onlarla söhbət edərkən Naxçıvan Muxtar Respublikası barədə təəssüratlarını öyrəndik.***

*Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyinin Əməyin Mühafizəsi və Təhlükəsizlik Texnikası üzrə Elmi-Tədqiqat İnstitutunun direktoru* ***Rüşdü Səfərov:***



– Biz qonaqlarla Naxçıvan şəhərini gəzdik, tarixi yerlərdə olduq. Duzdağ Fizioterapiya Mərkəzi ilə tanışlıq məndə, həmçinin qonaqlarda çox böyük təəssürat yaratdı. Burada insanların şəfa tapması, rahat müalicə olunması üçün hər cür şərait mövcuddur. Bura təkcə biz azərbaycanlılar üçün deyil, həm də bütün dünya xalqları üçün əhəmiyyətli şəfa mənbəyidir. Naxçıvan şəhərinin gözəlliyini isə ifadə etməyə söz tapa bilmirəm. Dünyaya dahilər bəxş etmiş bu diyar bu gün həm də nümunəvi şəhər mədəniyyəti ilə hər bir qonağın diqqətini cəlb edir. Bu gün gözəl, güllü-çiçəkli Naxçıvan şəhəri hər bir azərbaycanlının fəxrinə çevrilib.

*Rusiya Federasiyasından Sənaye Təhlükəsizliyi üzrə Dövlətlərarası Şuranın üzvü, Rusiya Ekoloji, Texnoloji və Atom Nəzarəti üzrə Federal Xidmətin rəhbəri* ***Aleksey Vladislavoviç Alyoşin:***



– İclasın Naxçıvanda keçirilməsinin bir əhəmiyyəti də o oldu ki, biz çox qədim tarixə malik olan Naxçıvan ilə tanış olmaq, onun tarixi barədə ətraflı məlumat əldə etmək imkanı qazandıq. Naxçıvan şəhərinin tarixi-memarlıq abidələri, Xalça Muzeyi, Xan Sarayı, Möminə xatın türbəsi, Naxçıvanqala məni valeh etdi. Yurdunuzun çox qədim tarixi olduğunu öyrəndik. Tarixi abidələrinizi qoruyub saxlamağınız, onları bərpa etməyiniz yüksək qiymətə, hörmətə layiqdir. Bu da xalqın öz tarixinə olan ehtiramının ifadəsidir.

Etiraf etməliyəm ki, əvvəllər Naxçıvan adını eşidəndə muxtar respublika barədə heç bir təsəvvürüm olmadığı üçün o qədər də diqqətimi cəlb etmirdi. Ancaq Naxçıvana gələndən sonra və çox gözəl, tarixi, abad, xüsusən təmiz, yaşıllıqlarla əhatə olunmuş şəhərinizi gördükdən sonra mən bu möhtəşəm diyarı həmişə böyük ehtiramla xatırlayacağam.

*Belarus Respublikasının Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsinə Nəzarət Departamentinin rəisi* ***Aleksandr Nikolayeviç Kudryaşov:***



– Üçüncü dəfədir ki, Azərbaycana gəlirəm. Axırıncı dəfə 2009-cu ildə Azərbaycanda olmuşam və gördüm ki, ölkənizin hər tərəfində abadlıq-quruculuq işləri sürətlə davam etdirilir. Naxçıvan Muxtar Respublikasının isə bu baxımdan lider olduğunu deyə bilərəm. Əvvəllər Naxçıvan haqqında çox eşitmişdim. Ancaq muxtar respublikaya gəlmədiyim üçün qədim diyarınız barədə təsəvvürüm yox idi. Naxçıvana gəldikdən sonra, sözün həqiqi mənasında, buranın inkişafı məni valeh etdi. Naxçıvana heyran qaldım. Hər tərəfdə intensiv tikinti işləri gedir, bununla birlikdə şəhər çox təmiz saxlanılır.

Naxçıvan şəhərindəki tarixi abidələrlə tanış olduq. Çox möhtəşəmdirlər. Ancaq mən əminəm ki, Naxçıvan Muxtar Respublikasının gəzməli-görməli yerləri bundan da çoxdur. Həmin yerləri gəzmək üçün xeyli vaxt lazımdır.

Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafı sahəsində də böyük nailiyyətlər qazanılıb. Ərzaq məhsulları ilə təminata nail olunması gözəl haldır. Onu da deməliyəm ki, Naxçıvanda yetişdirilən meyvə-tərəvəzlər çox dadlıdır.

Mən bilirəm ki, bu qədim torpaq naxçıvanlıların qanı bahasına qorunub saxlanılıb, onların alın təri ilə abadlaşıbdır. Qeyd etmək istərdim ki, Naxçıvan Muxtar Respublikasının blokada şəraitində saxlanılması heç də doğru deyil. Hesab edirəm ki, müasir dövrdə yüklərin təyyarə ilə daşınması metodundan ancaq çox zəruri hallarda istifadə olunur. Naxçıvana isə neçə illərdir ki, yüklər, əsasən, təyyarələr vasitəsilə daşınır. Bu, qəbuledilməz haldır. Mənim arzum budur ki, uzun illərdir, davam edən bu münaqişə tərəflərin maraqları çərçivəsində həll olunsun və bununla birlikdə Naxçıvan Muxtar Respublikası da blokadadan xilas olsun.

*MDB İcraiyyə Komitəsinin Təhlükəsizlik Sahəsində Əməkdaşlıq, Yeni Çağırış və Təhdidlərə Müqavimət Departamentinin Fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində əməkdaşlıq şöbəsinin müşaviri* ***Sergey Qriqoryeviç Mixnoveç:***



– Naxçıvanın çox gözəl iqlimi var. Havası, suyu təmizdir. Bütün bunlar ekoloji baxımdan, insan sağlamlığının qorunması baxımından yüksək qiymətə layiqdir. Mənim diqqətimi xüsusilə mineral sular cəlb etdi. Dadı və tərkibi, hər halda, həm də faydalılığı çox gözəldir.

Bununla birlikdə, insanlarınız gülərüz, qonaqpərvər və mədənidirlər. Bu, ali insani xüsusiyyətlərdir ki, naxçıvanlılarda bu, var. Mən sizi əmin edirəm ki, Naxçıvanın gözəlliyini, abadlığını, möhtəşəm iqlimini görən, suyunu içən, insanları ilə ünsiyyət quran hər kəs təkrar bu diyara gəlmək istəyər. Sözün açığı, mən də Naxçıvana bir daha gəlmək arzusundayam.

Naxçıvanın tarixi abidələri ayrıca bir söhbətin mövzusudur ki, bununla bağlı saatlarla danışmaq olar. 5 minillik şəhər tarixi olan bir yurdun, onlarla tarixi abidələri olan bir diyarın valehedici bir mənzərəsi var.

*Tacikistan Hökuməti yanında Dövlət Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Xidmətinin rəisi* ***Sidjouddin Salomzoda:***



– İlk dəfədir ki, Naxçıvana gəlmişəm. Düzünü desəm, şəhəriniz çox xoşuma gəldi. Naxçıvan çox gözəl tarixi şəhərdir. Təəccüb edirəm ki, 20 ildən çoxdur, blokadada olan bir məkan necə olur, bu səviyyədə sürətlə inkişaf edir? Məncə, bu, insan amili ilə bağlıdır. Vətəni sevmək, onun uğrunda çalışmaq, yüksəlişinə nail olmaq hər bir naxçıvanlının amalı olub. Məhz buna görə də qədim Naxçıvan bu cür sürətlə inkişaf edib.

Ümumilikdə, Azərbaycan Respublikası sürətlə inkişaf edir və bu məqamı Naxçıvanın timsalında görmək olar. Tarixi yerlərinizə göstərdiyiniz xüsusi diqqətə heyran qaldım. Min illərin tarixi ilə həmyaşıd olan abidələrinizi qoruyub saxlayıb, bərpa etmisiniz. Bu, məni çox sevindirir. Çünki Azərbaycan, Naxçıvan tacikistanlılar üçün də doğmadır, əzizdir. Bütün bunları nəzərə alaraq, hesab edirəm ki, dünyada Naxçıvan kimi gözəl, tarixi abidələrlə zəngin ikinci bir şəhər yoxdur.

**✍ Rauf ƏLİYEV**

# Tariximizdə yeni səhifə açan abidələr

## *Bu il aparılan arxeoloji tədqiqatlar Yaxın Şərq və Cənubi Qafqaz arxeologiyasının bir sıra problemli məsələlərinin öyrənilməsində mühüm rol oynayacaq*

***Son on il ərzində Naxçıvan Muxtar Respublikasında aparılan tədqiqatlar nəticəsində yüzlərlə yeni tarix və mədəniyyət abidələri qeydə alınmışdır. Milli-mənəvi dəyərlərimizin bir parçası olan bu abidələrin qorunması və tədqiqi dövlətimizin qayğısı ilə əhatə olunmuşdur. Dövlət qayğısının nəticəsidir ki, bu il Naxçıvan Muxtar Respublikasının bir çox abidələrində, o cümlədən Xaraba Gilan, Qızqala, Meydantəpə, Qalacıq, II Kültəpə, Şahtaxtı və digər abidələrdə araşdırmalar aparılmış, Naxçıvan tarixi üçün maraqlı nəticələr əldə olunmuşdur.***

Bu il həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tövsiyəsi ilə AMEA Naxçıvan Bölməsinin "Yeni yol arxeoloji ekspedisiyası" təşkil edilmişdir. Arxeoloji ekspedisiyanın apardığı araşdırmalar nəticəsində yeni abidələr qeydə alınmışdır. Bu abidələrin ikisi – III Kültəpə yaşayış yeri və Dəyirman yeri xüsusilə diqqəti cəlb edir. Arxeoloji və geomorfoloji araşdırmalar bu yaşayış yerlərinin e.ə. IV minillikdə baş verən daşqın nəticəsində qalınlığı 2-3 metr olan lil qatı ilə örtüldüyünü göstərir. Bu abidələr "Nuh tufanı" əfsanəsinin gerçək hadisələrdən qaynaqlandığını təsdiq edən tutarlı dəlillərdən biridir. Yeni qeydə alınan abidələrlə birlikdə Sirabçay və Naxçıvançay hövzəsində Eneolit dövrünə aid abidələrin sayı 23-ə çatmışdır. Uzun illərdir ki, qafqazşünas arxeoloqlar Naxçıvanı "Qafqazın Mesapotamiyası" adlandırırdılar. Bu ərazidə qeydə alınan yeni abidələr isə Naxçıvançay və Sirabçay vadisini "Yeni Mesapotamiya" adlandırmağa imkan vermişdir. Bu isə o deməkdir ki, Mesapotamiya abidələri Yaxın Şərq mədəniyyəti üçün nə dərəcədə əhəmiyyətlidirsə, Sirabçay vadisinin abidələri də Cənubi Qafqaz üçün o dərəcədə əhəmiyyətlidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi qayğısı, AMEA Naxçıvan Bölməsinin apardığı təşkilati işlər və xarici ölkə alimləri ilə əməkdaşlığı muxtar respublikada beynəlxalq ekspedisiyaların fəaliyyəti üçün əlverişli şərait yaratmışdır. Beynəlxalq Azərbaycan-Fransa arxeoloji ekspedisiyası Babək rayonu ərazisində yerləşən I Kültəpə abidəsində iki ildir ki, tədqiqat işləri aparmaqdadır. Bu il abidənin tədqiqi davam etdirilmiş, qazıntı işləri, başlıca olaraq, dörd sahədə aparılmışdır. Cənubi Qafqazın ən mühüm Neolit abidələrindən biri olan Kültəpənin tarixini dəqiqləşdirmək üçün vaxtilə Osman Həbibullayev tərəfindən qazılan dərinliyin səviyyəsi müəyyənləşdirilmiş, mədəni təbəqənin müxtəlif səviyyələrindən analiz üçün karbon nümunələri götürülmüşdür. İkinci sahədə abidənin kəsiyi təmizlənərək abidənin stratiqrafiyasının müəyyənləşdirilməsi üçün müəyyən işlər görülmüşdür. Üçüncü sahədə aparılan araşdırmalar zamanı tikinti qalıqları izlənmiş, evlərin döşəməsi altında dəfn edilən insanların skeletlərinin qalıqları aşkar olunmuşdur. Bu tip dəfn adəti Kültəpənin Son Neolit təbəqələri üçün xarakterik olmuşdur. Dördüncü sahədə aparılan araşdırma zamanı Son Neolit insanlarının həyat tərzini dəqiqləşdirməyə imkan verən yaşayış evlərinin, təsərrüfat tikintilərinin və məişət əşyalarının qalıqları aşkar edilmişdir. Araşdırmaların yekunları I Kültəpə abidəsində Neolit dövrünə aid sağlam qalmış təbəqələri müəyyən etməyə imkan vermiş, Kültəpənin ətrafda yerləşən Eneolit məskənlərinin mərkəzi olduğunu göstərmiş və gələcək tədqiqatların istiqamətini müəyyənləşdirməyə imkan vermişdir. Şübhəsiz ki, gələcək tədqiqatlar I Kültəpədə məskunlaşmanın tarixini və xarakterini müəyyən etməyə imkan verəcəkdir.

Beynəlxalq ekspedisiya Kültəpə abidəsinin tədqiqi ilə bərabər, Naxçıvançay və Sirabçay hövzəsində yeni aşkar olunan abidələri də tədqiqata cəlb etmişdir. Sirabçay boyunca Zəngəzur dağlarına istiqamətlənən bu abidələr Yaxın Şərqi obsidianla təmin edən qədim yolun bu vadidən keçdiyini ehtimal etməyə imkan vermişdir. Əgər nəzərə alsaq ki, şimal-qərbi İranın qədim yaşayış yerlərində istifadə olunan obsidianın 90 faizi Naxçıvanın yaxınlığında olan Sünik yatağından aparılmışdır, o zaman bu vadinin qədim sivilizasiyalar üçün nə dərəcədə əhəmiyyətli olduğu ortaya çıxar. Naxçıvanın qədim sakinlərinin istifadə etdiyi digər mühüm obsidian yataqları Göyçə gölü vadisində yerləşir. Məlumat üçün qeyd edək ki, indiki Ermənistan ərazisində məskunlaşan tayfalar Göyçəyə yaxın olmasına rəğmən, daha çox Ermənistanın qərbində yerləşən yataqlardan istifadə etmişlər. Bu isə Göyçə hövzəsinin Naxçıvanda yaşayan tayfaların nəzarətində olduğunu deməyə əsas verir. Araşdırmalar Göyçə gölü və Urmiya gölü hövzəsində yaşayan tayfaların iqtisadi-mədəni əlaqələrini aydın şəkildə təsəvvür etməyə imkan verir.

Naxçıvanın Cənubi Qafqazın mühüm metallurgiya mərkəzlərindən biri olduğu qafqazşünas alimlərin araşdırmaları ilə təsdiq edilmişdir. Sirabçay və Qahabçay vadisində yerləşən abidələrin tədqiqi zamanı metallurgiya və metalişləməyə aid yeni faktlar da aşkar olunmuşdur. Sirabçay abidələrində həmçinin xeyli mis mineralı və metal tökmək üçün qəliblərin aşkar olunması bu bölgənin metallurgiyanın inkişafında mühüm rol oynadığını göstərir. Bu vadidə yerləşən abidələrin böyük bir qismi yarımköçmə maldarlıqla məşğul olan insanlara aid olmuşdur. Şübhəsiz ki, bu faktlar qədim dünya üçün mühüm əhəmiyyəti olan obsidian, duz, mis və digər xammal ehtiyatlarının istifadə edilməsində Naxçıvançay və Sirabçay vadisində yerləşən tayfaların mühüm rola malik olduqlarını, həmçinin bu vadinin Cənubi Qafqazla Yaxın Şərq arasında keçid məntəqəsi rolunu oynadığını göstərir. Bu və ya digər məsələlərin təfərrüatını aydınlaşdırmaq məqsədilə Sirabçay vadisində yerləşən Sərinbulaq, Şorsu, Uçan Ağıl, Zirincli və digər abidələrdə də arxeoloji tədqiqatlar aparılmışdır. Şorsu və Zirinclidə irimiqyaslı arxeoloji qazıntılar aparılmış, burada köçmə maldarlıqla məşğul olan insanların məskunlaşdığı müəyyən edilmişdir.

Beynəlxalq Azərbaycan-Fransa arxeoloji ekspedisiyası dünyanın ən qədim duz mədənləri olan Duzdağda araşdırmaları davam etdirmiş, qədim tunellərin birindən Kür-Araz mədəniyyətinə aid gil qab aşkar edilmişdir. Tədqiqatlar zamanı mədənlərin birindən Erkən Dəmir dövrünə aid gil qab və həsir səndəl tapılmışdır ki, bu, qədim insanların hansı şəraitdə işləmələri ilə bağlı müəyyən təsəvvür yaradır. Ovçular təpəsindən aşkar edilən Kür-Araz keramikasının analizi onun Duzdağdan çıxarılan gildən hazırlandığını təsdiq etmişdir. Olduqca maraqlı haldır ki, Duzdağda aşkar olunan qədim daş alətlərin bənzərləri, hələlik, Naxçıvançay vadisində yerləşən I Kültəpə və II Kültəpə yaşayış yerlərindən məlumdur. Bu faktlar da Naxçıvançay vadisində yerləşən bu yaşayış yerlərinin qədim insanların iqtisadi-mədəni həyatında əhəmiyyətli rol oynadığını göstərir.

Arxeoloji abidələrin builki araşdırmaları mühüm nəticələr əldə etməyə imkan vermiş, o cümlədən Naxçıvanın qədim tarixi coğrafiyası ilə bağlı aşkar olunan yeni faktların səhih olduğu təsdiqlənmiş, Naxçıvanın Orta Tunc dövründə Yaxın Şərqin böyük bir qismində yayılan Boyalıqablar mədəniyyətinin ana vətəni olduğunu təsdiq edən yeni tapıntılar əldə edilmişdir. Kültəpədə aparılan araşdırmalar qədim insanların burada Neolit dövründən məskunlaşdıqlarını təsdiqləmişdir. Kültəpə abidəsi ətrafında aparılan geomorfoloji araşdırmalar zamanı e.ə. IV minillikdə Naxçıvanda böyük daşqın olduğunu, bəzi yaşayış yerlərinin daşqının lili altında qaldığını ortaya çıxarmışdır. Belə hesab edirik ki, bu abidələrin gələcəkdə tədqiqi yalnız Naxçıvan tarixinə töhfə verməklə məhdudlaşmayacaq, həmçinin Yaxın Şərq və Cənubi Qafqaz arxeologiyasının bir sıra problemli məsələlərinin öyrənilməsində mühüm rol oynayacaq.

**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvü***

## Kinekt və intellektual kompüter oyunları üzrə yarış

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"nın icrası uğurla davam etdirilir. Dövlət proqramının sağlamlıq imkanları məhdud uşaqların istedadlarının aşkara çıxarılması bəndinin icrası istiqamətində həyata keçirilən tədbirlərin davamı olaraq, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində növbəti kinekt və intellektual kompüter oyunları üzrə yarış təşkil edilib.

Yarışda sağlamlıq imkanları məhdud 14 uşaq iştirak edib. Sağlamlıq imkanları məhdud uşaqlar üç mərhələdə yarışıblar. İlk mərhələdə yarış iştirakçıları "tennis" kinekt oyunu, ikinci mərhələdə xüsusi kompüter proqramı əsasında hazırlanan test suallarının cavablandırılması, üçüncü mərhələdə isə "rəqəmləri tap" kompüter oyunu üzrə qabiliyyət və bacarıqların nümayiş etdiriblər.

Qeyd edək ki, bu qəbildən olan tədbirlər uşaqların bilik və intellektual səviyyələrinin yüksəlməsinə xidmət edir.

Sonda hər mərhələnin qalibinə hədiyyə, digər yarış iştirakçılarına isə həvəsləndirici mükafatlar təqdim edilib.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

## Aztəminatlı ailəyə baş çəkilib

Muxtar respublikada həyata keçirilən sosial-iqtisadi siyasətin başlıca məqsədlərindən biri vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi və əhalinin sosial müdafiəsinin təmin edilməsidir. Son illər iqtisadiyyatın inkişafında əldə edilən nailiyyətlər bu məqsədin uğurla reallaşmasına şərait yaradıb. Aztəminatlı ailələrə ünvanlı sosial yardımların verilməsindən başlamış çoxuşaqlı ailələrin, əlillərin, tənha yaşayan ahılların həyat şəraitinin yaxşılaşdırılmasına qədər bütün sosial müdafiə tədbirləri müvəffəqiyyətlə həyata keçirilir.

Aztəminatlı ailələrin sosial problemlərinin həll olunması, o cümlədən rifahının yaxşılaşdırılması istiqamətində həyata keçirilən çoxşaxəli tədbirlər ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. Mütəmadi olaraq müvafiq kateqoriyadan olan ailələrə baş çəkilməsi də həmin tədbirlərdəndir.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Əmək və Əhalinin Sosial Müdafiəsi və Səhiyyə nazirliklərinin birgə təşkilatçılığı ilə Culfa rayonunun Bənəniyar kəndində yaşayan aztəminatlı Məhərrəmovlar ailəsinə baş çəkilib. Adıçəkilən təşkilatların əməkdaşları aztəminatlı ailənin yaşayış vəziyyəti ilə maraqlanıb, ailə üzvlərini tibbi müayinədən keçirib, ailəyə məişət əşyası və ərzaq payı veriblər.

Xüsusi qayğıya ehtiyacı olan ailənin üzvləri onlara göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

**Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

# Naxçıvan Şəhər Prokurorluğu hüquqi maarifləndirmə tədbiri keçirib

*Dünən Naxçıvan Şəhər Prokurorluğunun təşkilatçılığı ilə Naxçıvan şəhərinin Əliabad qəsəbəsində tikintiyə dair ümumi tələblər, həmçinin enerji resurslarından səmərəli istifadə ilə bağlı maarifləndirici tədbir keçirilmişdir.*

Tədbiri Naxçıvan Şəhər İcra Hakimiyyətinin şöbə müdiri İsmayıl Gülməmmədov açmış, tədbirin mahiyyəti barədə iştirakçılara məlumat vermişdir.



Naxçıvan şəhər prokurorunun müavini, I dərəcəli hüquqşünas Qalib İsmayılov "Tikintiyə dair ümumi tələblər" mövzusunda məruzə ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi 29 iyun 2012-ci il tarixli Qanunla təsdiq edilmiş və 2013-cü il yanvarın 1-dən qüvvəyə minmişdir. Həmin məcəllənin şəhərsalma və tikinti qanunvericiliyinin təyinatı adlanan 1-ci maddəsinin tələbinə əsasən, Azərbaycan Respublikasının şəhərsalma və tikinti qanunvericiliyi şəhərsalma və tikinti fəaliyyətinin hüquqi əsaslarını, prinsiplərini, eləcə də dövlətin, bələdiyyələrin, fiziki və ya hüquqi şəxslərin şəhərsalma və tikinti fəaliyyəti sahəsində hüquq və vəzifələrini müəyyən edir.

"Məcəllənin 79-cu və 80-ci maddələrində tikintisinə icazə tələb olunmayan tikinti obyektlərinin tikintisinin aparılması qaydaları və tikintiyə başlamaq üçün məlumatlandırma icraatının qaydaları öz əksini tapmışdır", – deyən Qalib İsmayılov qanunun ayrı-ayrı maddələri barədə sakinlərə ətraflı məlumat vermişdir. Vurğulanmışdır ki, tikintisinə icazə tələb olunmayan tikinti obyektlərinin tikintisinin aparılması üçün adıçəkilən məcəllənin 80-ci maddəsində məlumatlandırma icraatının qaydası nəzərdə tutulmuşdur. Belə ki, mərtəbələrinin sayı 3-dən, hündürlüyü 12 metrdən və aşırımlarının uzunluğu 6 metrdən çox olmayan yaşayış evlərinin tikintisi ilə bağlı məlumatlandırma icraatı həyata keçirilir və onların tikintisi üçün tikinti layihəsinin yalnız memarlıq-planlaşdırma bölməsinin hazırlanması tələb olunur.

Məlumatlandırma icraatı ilə bağlı tikinti niyyəti barədə müraciətin daxil olduğu vaxtdan 3 ay ərzində tikinti layihəsinə irad olmadıqda, yerli icra hakimiyyəti orqanı həmin müddətin bitdiyi vaxtdan 3 iş günü ərzində barəsində məlumatlandırma icraatının tətbiq olunduğu obyektin tikintisi haqqında müvafiq icra hakimiyyəti orqanına – Fövqəladə Hallar Nazirliyinə məlumat verməlidir.

Sonra Naxçıvan şəhər prokurorunun böyük köməkçisi, kiçik ədliyyə müşaviri İlqar Rzayev "Enerji resurslarının talanması məsuliyyətə səbəb olur" mövzusunda çıxış etmişdir.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

**Xəbərlər şöbəsi**

# Zoğal bitkisi haqqında



*Yüksək hərarətə və sərt şaxtalara dözümlü bitkilərdən biri də zoğaldır. İnsanlar zoğaldan qidalı giləmeyvə kimi istifadə edirlər.*

Muxtar respublikamızın ərazisində də yetişdirilir. Hətta Şahbuz və Culfa rayonlarının Keçili və Milax kəndlərinin sərhədində qədim bir yaşayış məntəqəsinin adı "Zoğala" kəndi kimi yaddaşlarda yaşamaqdadır. Zoğal bitkisi zəngin və rütubətli torpaqlarda 6, qidalılığı və nəmliyi az olan yamaclarda 1,5-2 metrədək boy atıb hər il məhsul verən bitkidir.

Hazırda zoğalın xırdameyvəli cır və irimeyvəli hibrid növləri yayılmışdır. Əsasən, Ordubadın Nüsnüs meşəliklərində bitir.

Şahbuz rayonunda cır və hibrid növlərini bara salmışam. Meyvələri sentyabrda yetişir. Zoğal meyvəsi yetişdikcə al-qırmızı rəngə boyanır. Hətta zoğalın ağ meyvəli növü də vardır. Üç ildir, ağ zoğalı böyütsəm də, hələlik, bara düşməmişdir. Aldığım məlumata görə, ağ zoğalın mürəbbəsi sarı kəhrəba rənginə çalaraq çox dadlı olur.

Birinci Dünya müharibəsində rus ordusunun skorbut (vitamin çatışmazlığı) xəstəliyinə yoluxmuş əsgərləri zoğal lavaşası ilə müalicə edilmişdir. Zoğalın yetkin meyvəsinin tərkibində 20-25 faizədək şəkər (qlükoza, fruktoza, saxaroza), 8-9 faiz aşı maddəsi, 10-11 faiz üzvi turşular (limon, alma, kəhrəba), karotin, C və B vitaminləri, boyayıcı maddələr vardır. Xalq təbabətində zoğalın təzə dərilmiş meyvələrindən alınan şirə şəkərli diabetdə ürək yanğısının qarşısını alan sərinləşdirici vasitə kimi bilinməkdədir. Tumunun qovurulub toz halına salınması ishalın və dizenteriyanın ən kəskin dərmanıdır. Malyariya kimi qızdırma xəstəliyini vaxtilə qurudulmuş zoğalın dəmləməsi ilə müalicə edərmişlər. Yarpaqları və çiçəkləri də eyni təsirə malikdir. Zoğal meyvələri yetişdikcə turşuluğu azalır, şəkərliliyi artır. Odur ki, meyvəsi tam yetişməzdən əvvəl yığılmalıdır. Zoğal meyvəsindən tumu çıxarılmaqla lavaşa, kompot, mürəbbə, povidlo, püre, marmelad, kisel, dondurma, turşu, şirə hazırlanır.

Qış fəsli qonaqlı süfrələrin bəzəyi, əsasən, zoğal mürəbbəsi və kompotudur. Bəzən zoğalın mürəbbəsini hazırlayarkən qabaqcıl təcrübədən xəbərsiz olduğumuz üçün onun meyvələrini bir dəfəyə axıradək qaynatmaqla, əslində, onun biofəal, faydalı tərkibini xeyli zəiflədirik. Odur ki, ən faydalı üsulla mürəbbə hazırlanmasını oxuculara, xüsusən evdar xanımlara çatdırmaq qərarına gəldik.

Mürəbbələrin "şahı" sayılan zoğal soyuqdəymənin əlacıdır. Çəyirdəkli mürəbbə üçün (bəzən çəyirdəksiz zoğal mürəbbəsi hazırlayanlar da olur) 1 kiloqram meyvəyə 1,2-1,5 kiloqram şəkər tozu və 2 stəkan su qatılır. Əvvəlcə şəkər tozu və sudan şərbət hazırlanıb iki hissəyə bölünür. Minalı ləyənə mürəbbəlik zoğalın hamısı tökülüb hazırlanan şərbətin yarısı əlavə edilərək vam odda qaynara düşənə qədər saxlanılır. Qaynara düşən kimi götürülüb 6-8 saat soyudulur. İkinci dəfə qaynadılanda şərbətin qalığı da əlavə edilir. Yenə 6-8 dəqiqə qaynadıqda oddan götürülüb 5-6 saat soyudulur. Üçüncü qaynadılmada üzünün köpüyü yığılmalıdır.

Mürəbbə şirəsi şəffaf rəng alıb meyvələr qabın dibinə çökəndə mürəbbə ocaqdan götürülmədir. Mürəbbə daha ətirli və təravətli olsun deyə, oddan götürülməyə az qalmış ləyənə 5-6 ətirşah yarpağı və azacıq vanil əlavə etmək olar. Mürəbbə soyuduqdan sonra quru və təmiz bərnilərə yığılıb ağzı bağlanaraq quru və sərin yerdə saxlanılır.

Zoğaldan povidlo da hazırlanır. Bu zaman 3-5 kiloqramadək yetkin zoğala 2-3 stəkan su tökülüb 10-15 dəqiqə qaynadılır. Soyudulub süzgəcdən keçirilərək çəyirdəkdən təmizlənir. Hazır 1 kiloqram mətə 1 kiloqram şəkər tozu əlavə edilib yenidən 10-15 dəqiqə qaynadılır. Elə ki suyu çəkildi, soyudulub quru və təmiz bərnilərə yığılır. Zoğalla alma meyvəsinin qarışıq povidlosu daha dadlı olur. Bunun üçün 3 kiloqram zoğala 2 kiloqram alma məti əlavə edilib üzərinə 800 qram şəkər tozu qatılır. Elə ki ocaqdan düşürülüb soyuduldu, onda qablara yığılıb sərin yerdə saxlanılır. Uşaqlar üçün zəngin vitamin mənbəyidir.

Zoğal lavaşasından sinqa və raxit xəstəliklərində, milli xörəklərin hazırlanmasında istifadə olunur. Yetkin meyvələr qaynar suda pörtlübüb soyudulur. Süzgəcdən keçirilib məti çıxarılır, qaynadılır ki, duru olmasın. Sonra da sinilərə qoxusuz kərə yağı yaxılır ki, qurudulan lavaşa qabdan asanlıqla soyulsun. Zoğalın çəyirdəksiz qurudulmuş meyvəsindən piti xörəyinə əlavə edilir ki, yeyiləndə qan təzyiqi yaratmasın.

Zoğalın artırılması digər bitkilərdən fərqlidir. Bir dəfə min ədəd zoğal toxumunu xüsusi bir kərdiyə əkdim, iki ilə bircəciyi də cücərmədi. Sən demə, zoğal toxumu 3-4 ilə cücərir. Çünki toxumun səthi çox bərkdir, eləcə də 2-3 il istirahət dövrü tələb edir. Elə ki cücərdi, 5-6 ilə ting halına düşür.

Bir dəfə Gürcüstanda bilək yoğunluğunda bir şümşad ağacının 200 ildən yuxarı yaşı olduğunu deyən ekskursiyaçıya mən təəccüb edəndə gülüb dedi:

*– Təəccüblü deyil, şümşad ağacının toxumları 60 ilə ancaq cücərir. Çürüyən çürüyür, dözüb dayanan 60 ildən sonra iki yarpaqla yerin səthinə çıxır. Ona görə də şümşad ağacından hazırlanan mebel qızıl qiymətində olur.*

*Zoğal ağacı da çox möhkəm olur. Sənətkarlar onun 100 illik gövdəsindən qiymətli mebel hazırlayırlar. Odur ki, heyvandarlıqla məşğul olan xan çobanlar döydüm-ölməz olan əl ağaclarını qoşadüyün, əpəkli, yemişan və zoğaldan hazırlayırlar ki, qurdun kəlləsinə endiriləndə şaqqıltısı gəlsin.*

**Qaşdar ƏLİYEV**

*Topaz Premyer-Liqasının VI turu çərçivəsində "Araz-Naxçıvan" futbol komandası səfərdə "Xəzər-Lənkəran"la qarşılaşacaq. Lənkəran Şəhər Mərkəzi Stadionunda sabah oynanılacaq oyunun artıq hakimlər briqadası məlumdur. Belə ki, oyun baş hakim Ramil Diniyevə həvalə olunub. Fit sahibinə 90 dəqiqə ərzində Elşən Acalov və Cavanşir Yusifov köməklik edəcək. Meydana dördüncü hakim kimi isə Mahir Məmmədov çıxacaq.*

## "Araz-Naxçıvan"ın növbəti rəqibi "Xəzər-Lənkəran"dır

Artıq "Araz-Naxçıvan" Lənkərana yola düşüb. Komandamız bu gün axşam saatlarında oyunun keçiriləcəyi arenada son məşqinə çıxacaq. Baş məşqçi Əsgər Abdullayevi bu dəfə narahat edən məqam 4 futbolçunun zədəli olmasıdır. Tərlan Xəlilov və Hüseyn Axundovun cərgəsinə son məşqdə zədələnən Elgiz Kərəmli ilə Azər Məmmədov da qoşulub. Bu futbolçuların oynayıb-oynamayacağı oyun günü bəlli olacaq. Həmçinin komandanın yeni transferi Saşa Yunisoğlunun bu görüşdə meydana çıxacağı artıq dəqiqləşib.

"Xəzər-Lənkəran" komandasına gəlincə, "ağ-yaşıllar" komandamızla oyuna iki itki ilə hazırlaşıb. Belə ki, ötən tur "Neftçi" ilə matçda qırmızı vərəqə alan Tieqo de Xesus matçı buraxmalı olacaq. Ötən gün isə məşq prosesi zamanı Lənkəran təmsilçisinin futbolçusu Qabriel Fernando ciddi zədə alıb və əməliyyat olunub.

Qeyd edək ki, "Xəzər-Lənkəran"-"Araz-Naxçıvan" matçı sentyabrın 20-si saat 19[00]-da Lənkəran şəhərində keçiriləcək.

## İdman obyektlərində dezinfeksiya işləri aparılıb

*Dünən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Səhiyyə Nazirliyinin tədbirlər planına əsasən, Şərur rayonunda yerləşən idman zallarında dezinfeksiya işləri aparılmışdır.*

Rayonun Gənclər və İdman İdarəsinin rəisi Ramil Dadaşov bildirdi ki, bu cür tədbirlər mütəmadi olaraq həyata keçirilir. Şərur rayonunda müxtəlif idman zalları fəaliyyət göstərir. Biz rayon Gigiyena və Epidemiologiya Mərkəzi ilə birgə tez-tez dərmanlama işləri aparırıq. Məqsəd isə idmançılarımızı yoluxucu xəstəliklərdən qorumaq və onların daha təmiz idman zallarında məşqlər etməsini təmin etməkdir.

Qeyd edək ki, dezinfeksiya işləri muxtar respublikanın bütün rayonlarında yerləşən idman obyektlərində, zallarında mütəmadi olaraq həyata keçirilir.

**Ceyhun MƏMMƏDOV**

**İtmişdir**

Türkiyə vətəndaşı Güldürmez Eserin adına Naxçıvan Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti və qiymət kitabçası itdiyindən etibarsız sayılır.

* * *

Türkiyə vətəndaşı Güldürmez Esərin adına Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün verilmiş icazə vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Mühbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 809